# ORTAQ KEÇMİŞDƏN ORTAQ GƏLƏCƏYƏ

## ÇARİZMİN İŞĞALÇILIQ SİYASƏTİ ÜMUMTÜRK TARİXİ KONTEKSTİNDƏ

## Qızıl Orda və ondan törəmə tatar xanlıqları

*(tarixi-etnoqrafik oçerklər)*

⇨ Əvvəli ötən saylarda

### Qızıl Ordanın varisləri: müstəqil tatar dövlətlərinin yaranması

*(QEYD: Həştərxan xanlığının yaranmasına dair məlumat yuxarıda verilmişdir).*

**a/ Noqay Ordası**

Qızıl Ordanın parçalanma xronologiyasını izləmək, qeyd etdiyimiz kimi, heç də asan deyil. Buna rəğmən, mərkəzləşmiş dövlətin süqutu prosesində ayrılanların ardıcıllığı müəyyən nisbətdə təsbit edilib və Noqay Ordasının birincilərdən olması məlumdur. Adını Əmir Noqaydan alması fikri nə qədər geniş yayılsa da (müvafiq oçerkdə bu məsələyə qayıdacağıq), Noqay Ordasının yaradıcısı Yedigey sayılır. Noqay ulusu hələ qədim zamanlardan çoxsaylı qəbilə və tayfaların birləşməsindən yaranmışdı. "Dəşti-qıpçaqda türk boyları ilə qarışıb islamlaşan monqol qəbiləsi" kimi səciyyələndirilən manqıt boyu bu birləşmənin hakim ünsürü, Yedigeyin atası Kutlu Kıya bəy isə manqıtların hakimi idi. Hələ 1392-ci ildən manqıtların ulubəyi ("uluğbiy") seçilən Qızıl Orda tümənbəyi Yedigey 1398-ci ildə Timur Kutluğun taxta gətirilməsində müstəsna rol oynamış və onun tərəfindən baş əmir təyin edilmişdi. Qeyd etdiyimiz kimi, Yedigey faktiki olaraq imperiyanın mütləq hakimi idi və Qızıl Ordada gedən mərkəzdənqaçma proseslərinin geridönməzliyi ona daha yaxşı bəlli idi. Ordanın bütövlüyünü qorumaq üçün göstərdiyi səylər nəticə verməsə də Yedigeyin adı və nüfuzu, şübhə yoxdur ki, ayrılma proseslərinin gedişində noqay uruqlarının mövqeyini gücləndirən amillərdən olmuşdur. Ölümündən sonra da Noqay uruqlarında idarəçiliyi manqıtların ulubəyləri sifəti ilə onun nəslindən olan mirzələrin (əmirzadələrin) həyata keçirdiyi dəqiq bəllidir. Bununla belə Vadim Trepavlovun vurğuladığı kimi bəzi tayfa birlikləri konfederasiya çərçivəsində və manqıtların razılığı əsasında öz bəyləri tərəfindən idarə olunub. Əhalisinin əksər qisminin köçəri həyat tərzi keçirdiyi nəzərə alınarsa, boyların, tayfaların, birliklərin nisbi azadlığı şəraitində bu ehtimal, fikrimizcə, daha məntiqli sayılmalıdır. Beləliklə, göründüyü kimi hələ əmir Noqay dövründən mərkəzləşmiş Qızıl Orda dövlətinə mənsub klassik uluslardan biri olmaqdan daha çox azad boyların birləşməsi kimi yaşamış, parçalanma proseslərində muxtar mövqeyini qorumuş, vahid dövlətin süquta uğraması məcrasında müstəqillik qazanmış və əsasən Volqadan İrtışa, Xəzər və Aral dənizlərindən Cənubi Urala qədər çöl ərazilərini əhatə etmiş Noqay Ordası XIV əsrin sonları-XV əsrin əvvəllərində Yedigeyoğullarının idarəçiliyi altında yaranmışdır. Jan Pol Ru parçalanma ərəfəsində Noqay Ordasının "300 min süvaridən ibarət dünyanı istila edə biləcək bir ordu toplamaq gücündə olduğunu" qeyd edir. Məhz elə bu hərbi gücünə görədir ki, Noqay Ordası Cuci soyundan gələn xanlar üzərində təsir gücünü heç zaman itirməmiş, Qızıl Ordanın digər törəmələri ətrafında baş verən bir çox tarixi proseslərdə fəal rol oynamışdır...

**b/ Krım xanlığı**

Tarixşünaslar Krım və Kazan xanlıqlarının ayrılıb müstəqilləşməsini, habelə Qasım xanlığının təşəkkülünü Böyük Orda xanlarından Uluğ Məhəmmədlə Kiçik Məhəmmədin varisləri arasında baş verən taxt mübarizələri ilə izah edir, bu hadisələr fonunda nəzərdən keçirirlər. Cəlaləddin bin Toxtamışın oğlu Uluğ Məhəmməd 1419-1424-cü və 1427-1436-cı illərdə Qızıl Orda xanı olmuş, lakin taxtını Kiçik Məhəmmədə buraxmağa məcbur olub Krıma, daha sonra isə "əski Volqa və Kama Bulqar krallığına, yəni türkdilli tatar, çuvaş, başqırd və fin-uyğurların, çeremislərin, mordvinlərin yaşadığı torpaqlara" (Jan Pol Ru) getmiş, bu ərazilərdə həmin gələcək xanlıqların konturlarını müəyyənləşdirmişdir. 1428-1433-cü illərdə (bəzi mənbələrdə hətta 1441-ci il də göstərilir) meydana çıxan Krım xanlığı çöl ərazilərini, az sonra isə bütün yarımadanı və Qara dənizin şimal hissələrini əhatə edirdi. Krım xanlığının müstəqillik qazanması Böyük Ordanı dənizə çıxışdan məhrum edir, iqtisadi sərvətinin əsas mənbəyi olan beynəlxalq ticarət şəbəkəsindən qoparırdı. Hacı Girey xanın hakimiyyəti dövründə Qara dənizdə fəaliyyət göstərən xarici ticarət qurumları, xüsusilə italyanlar (genuyalılar) ilə əlaqələr Krım xanlığının nəzarətinə keçir və daha da möhkəmlənir. Lakin onun ölümündən sonra, J.P. Runun da yazdığı kimi oğulları arasında taxt mübarizəsi başlayır və bu ölüm-dirim mübarizəsi əsnasında yerli qəbilə başçılarının xahişi ilə yarımadaya göndərilən Osmanlı donanması 1475-ci ildə qardaşlardan Məngü Gireyi "Babi-Alinin hakimiyyətini qəbul etmək şərti ilə Krım taxtına" oturdur. Həmin ildən Krım xanlığı Osmanlı imperiyasından asılılığa düşür.

**c/ Kazan xanlığı və onun "əlavəsi" kimi nəzərdə tutulan Qasım xanlığı**

Uluğ Məhəmməd və oğlu Mahmudun səyləri ilə Orta Volqa və Aşağı Kama ərazilərində əvvəl Kazan vilayəti, 40-cı illərdə isə onun əsasında müstəqil Kazan xanlığı təşəkkül edir. Bu dövlətin ərazisi müasir Rusiyanın Tatarıstan, Başqırdıstan, Çuvaşiya, Udmurtiya, Mari federal qurumlarını, habelə Simbirsk, Penza, Perm, Vyatka, Nijni-Novqorod, Samara, Saratov ("Sarı-tau"), Tsarıtsın ("Sarı-tin"), Tambov, Ryazan kimi qədim şəhərlərini əhatə edirdi. Qasım xanlığına gəldikdə onun yaranması və ümumiyyətlə, mövcudluğuna dair fikirlər xeyli ziddiyyətlidir. Hətta bəzi rus və tatar alimləri belə bir xanlığın varlığını tarixçilərin uydurması hesab edirlər. Onların fikrincə, mənbələrdə Qasım xanlığının adı keçmir. Tatarlarla münasibətlərdən bəhs edən rus mənbələrində bu qurum və onun yerləşdiyi məntəqə "Meşera", "Meşer yurdu", "Ryazan yurdu", "Meşer şəhərciyi", hətta "Şahzadə şəhəri" kimi adlarla xatırlanır. Fransız tarixçisi Jan Pol Ru isə bu təşəkkülü Qızıl Ordadan törəmə xanlıqlar siyahısında göstərsə də, Qasım xanlığına dair tam özünəməxsus, orijinal bir versiya irəli sürür. Onun fikrincə, "Uluğ Məhəmmədin hakimiyyətə gəlmək istəyən oğullarından biri Qasım bəy (öl. 1469) Moskvaya sığınmış və Qorodets adlı bir şəhərin ona verilməsinə nail olmuşdur. Şəhər bundan sonra "Kasimov" adlandırılmışdır. Qasım bəy XV əsrdə xristian bir hökmdarın vassalı olmağı qəbul etmiş yeganə müsəlman bəyidir. O, ruslara sadiq qalacaq, onlarla birlikdə keçmiş yurddaşlarına qarşı yürüşlərdə iştirak edəcək və xristianlığı qəbul edib slavyanlaşacaqdı. Müsəlman əhali buna dözməyib yaxınlıqdakı İslam ölkələrinə (tatar xanlıqları nəzərdə tutulur-N.M.) üz tutacaq". Daha geniş yayılmış versiya isə bundan ibarətdir ki, Qasım xanlığı Uluğ Məhəmmədin 1445-ci ildə Suzdal yaxınlığında ruslarla apardığı meydan müharibəsi nəticəsində yaranıb. Qələbə çalan Məhəmməd xan əsir aldığı rus hakimi Vasili qarşısında bir neçə şərt irəli sürmüş və bunların qəbul edilməsinə nail olmuşdur. Türk tarixçisi Ə.Dəmirin fikrincə, həmin şərtlərdən biri də Oka çayı üzərindəki şəhər (müəllif şəhərin adını "Hankerman" kimi göstərir və başqa mənbələrə görə, yeni salınan Qasım şəhəri" deyə izah verir) mərkəz olmaqla Qasım bəyliyinin yaradılması idi. Ə.Dəmir yazır: "Bu bəyliyi Uluğ Məhəmmədin oğlu Qasım idarə edəcəkdi. Tarixdə "Qasım xanlığı" (1445-1681) adı ilə tanınan bu təşəkkülün meydana gətirilməsindən məqsədin "Moskvanı daha yaxından nəzarətdə saxlamaq, lazım gəldiyi vaxt dərhal müdaxilə etmək üçün hərbi qüvvə çıxarmaq" olduğu söylənilir. Buradakı hərbi qüvvələrin məsrəfləri ətraf rus şəhərlərinin gəlirlərindən təmin olunacaq, Moskva xəzinəsindən də illik ödənc ayrılacaqdı". Deyilənlərdən belə bir qənaət hasil olur ki, tarixşünaslıqda Qasım xanlığına qeyri-ciddi münasibət bəslənilməsi (gah onun "bəylik" adlandırılması, gah ümumiyyətlə, mövcudluğunun şübhə altına alınması) bu siyasi birliyin lap başlanğıcdan "yardımçı" missiya daşıması ilə bağlıdır.

**ç/ Sibir xanlığı**

XV əsrdə tədricən Tobol və İrtış çaylarının qovuşduğu ərazilərdə mərkəzi Çingi-Tura (Tümen) olan Sibir xanlığı yaranır və ilk dövrdə Noqay Ordasından asılı vəziyyətdə fəaliyyət göstərərək, sonradan müstəqil xanlığa çevrilir.

Tatar xanlıqlarının yaranması haqqında bu qısa məlumata onu da əlavə etməliyik ki, Qızıl Ordanın törəmələri yalnız sadalananlarla məhdudlaşmır. Misal üçün, 1920-ci ilədək Xivə xanlığı adı ilə mövcud olmuş Xarəzm dövləti də şeybanilərin (və deməli, Qızıl Ordanın) varisi sayılır. Şeybanilər (özbəklər) vaxtilə Qərbi Sibirdən Mavəraünnəhrə köç edib burada Çağatay ulusuna aid əraziləri tutmuş və yaratdıqları xanlığa babalarının adını vermişlər. D.Kıdırəli və Q.Babayarov varislər siyahısına Özbək xanlığını (Əbülxeyir xan, 1428-1468) və nisbətən cavan Qazax xanlığını da ayrıca daxil edirlər. Qazax xanlığı cucilərin ("sol qol" hökmdarlarının) qədim Çağatay torpaqlarını ələ keçirmələri ilə yaranmışdı və Beynəlxalq Türk Akademiyası alimlərinin fikrincə, 1465-ci ildən 1822/1847-ci ilədək mövcudluğunu qorumuşdur. Geniş yayılmış başqa bir qənaətə görə, əgər özbəklər (şeybanilər) Orta Asiyanın oturaq əhalisini özlərinə tabe etmişlərsə, Qazax xanlığı köçəri çağatay-moqollarla Cuci ulusunun sol qoluna mənsub köçərilərin ittifaqından yaranmışdır.

Nəhayət, Qızıl Ordanın parçalanma proseslərindən bəhs edərkən mütləq bir məsələyə də toxunmaq lazım gəlir. Bəzən tatar xanlıqlarının yaranması rus knyazlıqlarının asılılıqdan qurtulması kimi qiymətləndirilir və bunlar eynizamanlı hadisələr sayılır. Birmənalı şəkildə qeyd etməliyik ki, belə deyil. Sovet tarixçilərinin də etiraf etdikləri kimi, rus knyazlıqları Qızıl Ordanın süqutundan sonra da uzun müddət, XVI əsrədək Kazan və Həştərxan xanlıqlarının nəzarətində qalmışlar. Krım xanlığı isə XVIII əsrdə belə "rus ulusu"nu və Böyük Litva knyazlığına aid "rus torpaqları"nı (Ukraynanı) öz votçinası hesab etmişdir və bu da əsassız deyil. Beləliklə, Böyük Orda xanlığı ilə Uqra çayı üzərindəki qarşıdurmadan (1480) sonra Moskva üçün yalnız bir şey dəyişmişdir: onlar artıq tək "Baş Orda"ya yox, həm də adıçəkilən tatar xanlığına xərac ödəməli olmuşlar.

### Qızıl Orda imperiyasının tarixdə rolu

Bir neçə yüzillik ərzində nəhəng bir coğrafi məkanda baş verən mürəkkəb siyasi, iqtisadi, etnik, demoqrafik, mədəni... proseslərin ən mühüm hərəkətverici qüvvəsini təşkil etmiş Qızıl Ordanın tarixi əhəmiyyəti özlüyündə geniş bir tədqiqat mövzusu olub, İslam tarixi, türk-İslam mədəniyyətinin inkişafı və təsir dairəsinin genişlənməsi məsələləri ilə sıx bağlıdır. Qızıl Orda həmçinin bir çox türk etnoslarının genezisində silinməz izlər buraxmışdır. Bu möhtəşəm dövlətin tarixi əhəmiyyəti və bizim oçerklərin ana mövzusu arasında kəsişmə məqamlarını araşdırarkən ən azı 3 məsələni qısa da olsa vurğulamaq lazım gəlir. İlk öncə qeyd edilməlidir ki, müasir tatar xalqı Qızıl Ordanın birbaşa etnomədəni varisidir və bir etnos olaraq məhz bu dövlətin tərkibində ikən formalaşmışdır. Orda imperiyasının başqırd, qazax, noqay, özbək və b. türk xalqlarının etnik inkişafında əhəmiyyətli rol oynaması ikinci mühüm məsələdir. Və nəhayət, üçüncü xüsus - Rusiyada dövlətçilik ənənələrinin formalaşmasında, xüsusilə Moskva knyazlığında idarəçilik sisteminin və hərbi işin təşkilində Qızıl Ordadan əxz olunmuş zəngin təcrübənin əsas götürülməsidir ki, bu haqda bir qədər ətraflı bəhs etmək lazım gəlir. Yuxarıda da vurğulandığı kimi, monqol işğalı ərəfəsində ruslar yaşayan ərazilərdə daxili asayiş pozulmuşdu və faktiki olaraq anarxiya hökm sürürdü. Məhz Qızıl Ordanın dəmir intizam və sabitlik yaratması nəticəsində qısa müddət ərzində knyazlıqlar arasında ixtilaf və çəkişmələrə son qoyulmuş, iqtisadi və sosial rifahın yüksəlməsi üçün təminat yaranmışdı. Sonrakı 240 il ərzində Moskva knyazları Ordanın inzibati metodlarına yiyələnmiş, idarəçilik texnologiyalarını mənimsəmişlər. Vadim Trepavlovun da etiraf etdiyi kimi, geniş ərazilərin səmərəli idarə olunması üçün sərt hakimiyyət iyerarxiyasının qurulması, yasaq (natural vergilərin ödənilməsi) və əmanətlər (asılı tərəfin hakim sülaləsinin təmsilçisi uşaq yaşlarından hakim tərəfə "amanat", başqa sözlə, girov göndərilirdi) sisteminin yaradılması daha məqsədəuyğun sayılırdı. Qızıl Orda ilə qarşılıqlı münasibətlər o dövr üçün innovativ sayılan bir çox texnologiyaların tətbiqinə geniş zəmin yaratmışdı. Rus knyazlıqları hələ Çingiz xan dövründən fəaliyyət göstərən yolnəqliyyat və poçt-rabitə şəbəkəsinə inteqrasiya olunmuşdur. Pul tədavülü və gömrük sistemlərinin Qızıl Ordadan əxz edilməsi müasir rus dilinin leksik tərkibində də əksini tapır. Misal üçün, ruscada bu gün də ümumişlək olan "denqi" (pul) və "tamojnya" (gömrük) sözlərinin "təngə", "tamğa/damğa" sözlərinin şəkildəyişməsi olduğu şəksizdir. Ordanın asılılığını qəbul etdikdən sonra Saray və digər şəhərlərlə əlaqələrin genişlənməsi, gediş-gəlişin artması rusların geyim, kulinariya və məişət tərzlərinə dərin təsir göstərmişdir ki, bir çox etnoqraf və tarixçilər bunu ispan mədəniyyətinin ərəb-müsəlman elementləri hesabına zənginləşməsi ilə analoji hadisə hesab edirlər. Orda təsirlərinin, ümumiyyətlə, kompleks səciyyə daşıdığı, rus dünyagörüşünün daha dərin qatlarına sirayət etdiyi müasir elmi fikirdə çoxsaylı tədqiqatlar yolu ilə təsdiqini tapıb. "Orda zülmü" haqqında təlqinedici fikirlərin geniş yayılmasına baxmayaraq, 240 illik bu dövrün rus xalqının ümumi təkamül tarixində mütərəqqi rol oynadığını qeyd edənlər, zənnimizcə, daha haqlıdırlar. Bu təmayülün tərəfdarları Orda ilə münasibətlərin, Şərqdən təsirlənmələrin rus dövlətçiliyinə güc, dayanıqlıq və davamlılıq verdiyni vurğulayır, rus dilinin, pravoslav kilsəsinin, rus etnomədəni kimliyinin "Orda boyunduruğu" altında mühafizə olunub möhkəmlənməsinə, mərkəzləşdirilmiş milli dövlət ideyasının güclənməsinə və s. dair tutarlı arqumentlər irəli sürürlər. Sovet tarixşünaslığında hətta Moskva Rusiyasına Qızıl Ordanın tarixi varislərindən biri kimi baxanlar da olmuşdur və bu, heç də təsadüfi sayılmamalıdır.

Daha bir maraqlı məsələ süquta uğrayıb, xanlıqlara transformasiya olunandan sonra da Qızıl Ordanın öz törəmələri vasitəsilə siyasi varlığını yeni dövrə qədər davam etdirə bilməsidir. Bu möhtəşəm imperiyanın bağrından qopan, onun "gen"lərini daşıyan tatar xanlıqları Qızıl Ordanın yalnız xatirəsini deyil, həm də siyasi mirasını (idarəçilik formasını, daxili quruluşunu, hakim sülalələrini, prinsip və ənənələrini) yaşatmış, zərrə küllü əks etdirdiyi tərzdə, onun kiçik analoqları olmuşlar. Qızıl Orda dünya xəritəsindən silindikdən sonra da geosiyasi proseslərin aktiv iştirakçıları tərəfindən tamamilə real bir güc kimi təsəvvür edilən azsaylı tarix subyektlərindən sayıla bilər. Onun vahiməsi uzun müddət çoxlarının yuxusuna haram qatıb. Rusiya bu cəhətdən hamını üstələyir desək, yanlışlıq olmaz. Çar imperializmi və Sovet hakimiyyəti dövrlərində Qızıl Ordanın tarixi əhəmiyyətini heçə endirən, onu "vəhşi Şərq təmayüllü" mütləqiyyətçi monarxiya kimi təqdim edən basmaqəlib baxışlar hər vasitə ilə məhz buna görə məqsədyönlü şəkildə tirajlanmış, təkrarlanaraq kitabdan kitaba keçmiş, nəsildən nəslə ötürülmüş, kütləvi şüura və dövlət siyasətinə sirayət etmiş, unikal bir sindrom, hətta xəstəlik halını almışdur. Qızıl Ordanın diriləcəyindən, canlanacağından, dirçələcəyindən həmişə qorxmuşlar. Onun törəmələrinə qarşı şiddətli aqressiyanın bir mühüm səbəbi də burada axtarılmalıdır. Aşağıda Kazan, Həştərxan, Sibir, Krım xanlıqlarının, Noqay Ordasının ruslar tərəfindən işğal edilməsi məsələləri üzərində ətraflı dayanacağıq. Əminliklə söyləyə bilərik ki, bu davamlı işğalların ən ümumi və ən başlıca səbəblərindən biri - Qızıl Ordanın reinkarnasiya xofu olub. Adı çəkilən dövlət qurumlarının siyasi tarixi və işğal xronikası da məhz Qızıl Orda ilə bağlı stereotiplərin kölgəsində "öyrənilmiş", açıq təhriflər və üstüörtülü klişelərlə dolu bir "tarix" qondarılmışdır. Qısa desək, Ordanın varisliyi tatar xanlıqları üçün taleyin şərəfli bir bəxşişi olmaqla bərabər onların üzərinə ağır siyasi-tarixi məsuliyyət yükü qoymuşdur və işğal prosesində onların xüsusi amansızlıqla cəzalandırılması, bütün başqa amillərlə yanaşı, həm də bu mirasın "ağırlığı" ilə şərtlənmişdir.

**N.MUSTAFA**

⇨ Davamı növbəti sayda